Azərbaycan.- 2024.- 10 fevral, № 29.- S.12.


# Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasından altı il ötür





Azərbaycan İlahiyyat İnstitutunun (AİI) yaradılmasının altıilliyi münasibətilə tədbir keçirilib. AİI rektoru dosent Aqil Şirinov öncə kollektivin hər bir üzvünü ali təhsil müəssisəsinin altıilliyi münasibətilə təbrik edib.

Bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasəti onun layiqli davamçısı - Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, bu istiqamətdə də diqqət və qayğının bariz nümunəsi olaraq, cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını göstərə bilərik.

AİI rektoru institutun əldə etdiyi nailiyyətlərdən bəhs edərkən bildirib ki, ali təhsil müəssisəsinin yarandıqdan sonra apardığı tədris, təşkil etdiyi respublikadaxili və beynəlxalq elmi konfranslar, simpoziumlar, forumlar, eləcə də akademik heyətin din sahəsinə töhfə verən elmi araşdırmaları, xalqın dini baxımdan düzgün istiqamətdə maarifləndirilməsi prosesində yaxından iştirak etməsi institutun Azərbaycan ictimaiyyətinin etimadını qazanmasına səbəb olub.

A.Şirinov vurğulayıb ki, AİI dövlətçilik prinsiplərinə sadiq qalan, ölkəmizin dini mühitini nəzərə alan, dünyəvilik, müasirlik təfəkkürünü özündə birləşdirən ali təhsil müəssisəsidir. İnstitut tələbələrinin yüksəkixtisaslı peşəkar kadr kimi yetişməsinin vacibliyinə diqqət çəkən rektor qeyd edib ki, institutun məzunları, artıq ölkəmizin bir sıra bölgələrində imam, imam müavini və dini ayinlərin icraçısı vəzifələrində çalışırlar.

AİI rektoru institutun fəaliyyətində göstərdikləri dəstəyə görə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə, Mənəvi Dəyərlərin Təbliği Fonduna, Qafqaz Müsəlmanları İdarəsinə dərin minnətdarlığını bildirib.

Sonda Azərbaycan İlahiyyat İnstitutunun rektoru dosent Aqil Şirinov, tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru dosent Mübariz Camalov və elm və innovasiyalar üzrə prorektoru dosent Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin uğurunun bütün kollektivin uğuru olduğunu bildirərək, kollektivin hər bir üzvünü AİI-nin yaradılmasının altı ili münasibətilə təbrik ediblər.

*"Azərbaycan"*